| | |
|---|---|
| ***Müəsisə*** | Azərbaycan Respublikası Səhiyyə Nazirliyi<br>Azərbaycan Tibb Universiteti |
| ***Sənədin növü*** | Tibb üzrə fəlsəfə doktoru adını almaq üçün<br>Dissertasiya işinin<br>**ANNOTASİYASI** |
| ***İşin adı*** | Müxtəlif yaş dövrlərində qadın kiçik çanağının və onun bəzi orqanlarının morfometrik, topoqrafik xüsusuyyətləri |
| ***Elmi istiqamətin adı və kodu*** | İnsan anatomiyası-3241.01 |
| ***İcraçı*** | Qanbayeva Şəbnəm Faiq qızı |
| ***Elmi rəhbər*** | Azərbaycan Tibb Universitetinin insan anatomiyası kafedrasının professoru t.e.d. Xıdırov E.Ə. |
| ***Şəhər və il*** | Bakı 2017 |

# TƏDQİQATIN MƏZMUNU

| | |
|---|---|
| ***İşin adı*** | Müxtəlif yaş dövrlərində qadın kiçik çanağının və onun bəzi orqanlarının morfometrik, topoqrafik xüsusuyyətləri |
| ***İşin ideyası və referatı*** | ***Problem*** *– Müxtəlif yaş dövrlərində qadın kiçik çanağının morfometrik ölçülərinin və çanaqda yerləşən bəzi orqanlarının topoqrafo- anatomik xüsusiyyətlərinin araşdırılması.*<br><br>***Əsas məsələ (ideya)*** *- Normada kiçik çanağın və orqanların morfometrik, topoqrafo-anatomik xüsusuiyyətlərinin araşdırılması və yaş dövrlərindən asılı olaraq çanağın və orqanların normativ göstəricilərinin müəyyənləşdirilməsi.*<br><br>***Metodika*** *– Anatomik təşrih metodu, morfometriya, maqnit-rezanans tomoqrafiya müayinə metodları ilə kiçik çanağın girəcəyinin və çıxacağının morfometrik ölçülərinin təyini, USM müayinə metodu ilə boşluqda yerləşən orqanların (uşaqlıq, yumurtalıq) topoqrafo-anatomik xüsusiyyətlərinin və ölçülərinin təyini. Rəqəm göstəricilərinin statistik təhlil metodu.* |
| ***Açar sözlər*** | *Qadın kiçik çanağı, morfometrik ölçülər, orqanların topoqrafo-anatomik xüsusiyyətləri.* |
| ***İşin xarakteri*** | Fündomental |
| ***Sənədin növü*** | T.f.d dissertasiyasının annotasiyası |
| ***Aktuallığı*** | Qadın kiçik çanağının və çanaqda yerləşən orqanların morfometrik topoqrafo-anatomik xüsusiyyətlərinin öyrənilməsi daima tədqiqatçıların diqqət mərkəzində olmuşdur (Озерская И.А. 2001, Цхой.В.Б 2002, Сырова О.В. 2008). Yaş dövrlərindən və cinsiyyətdən aslı olaraq çanağın quruluş xüsusiyyətlərinin öyrənilməsi morfoloqların, mama-ginekoloqların və məhkəmə tibbi ekspertlərinin qarşısında duran əsas məsələlərdən biridir (Thomas S.M. 1998, Barentsz J.O. 1999, Хребтова О.М. 2004, Haqverdiyeva H.L. 1989). Çanağın formasının müxtəlifliyi haqqında mövcud olan fikirlər alınan nəticələrin müqayisə və analizində çətinliklər törədir. Çanağın formasından asılı olaraq əldə |

| | |
|---|---|
| | olunan morfometrik göstəricilərin müxtəlifliyi tədqiqatların fərdi qaydada aparılması ilə əlaqədardır (Виноградов С.В. 2006, Михайлов А.Н. 2008). Kiçik çanağın standart ölçü göstəricilərinin minimal və maksimal ölçülərinin müxtəlifliyi, çanağın digər anatomik indekslərinin öyrənilməsi zərurətini yaradır (Виноградов С.В. 2009)<br>Müasir tədqiqat metodlarından istifadə etməklə xüsusilə maqnit rezanans tomoqrafiya, ultrasəs müayinə üsulları ilə canlı insanların çanağının hər hansı anatomik göstəriciləri və çanaq boşluğunda yerləşən orqanların topoqrafik xüsusiyyətləri haqqında dürüst fikir söyləmək mümkündür. Eyni zamanda praktik həkimlərin gündəlik fəaliyyətində daha çox istifadə etdikləri çanağın morfometrik göstəriciləri əsasən təşrih materiallara və rentgenoqrafiyaya əsaslanır (Гайваронски И.В. 2005). Bədən tiplərindən asılı olaraq çanağın forması alimlər tərəfindən geniş tədqiq olunmuşdur. Belə ki, müəyyən olunmuşdur ki, astenik tipli bədən qurluşlarında ən çox dar çanaqlara təsadüf olunur.<br>Yetgin dövrdə dar çanağa az təsadüf olunur. Eyni zamanda belə nəticəyə gəlinir ki, gənclik dövrdə xarici konyuqata mamalıq normotivindən kiçik olur. Yalnız 18-20 yaşlarında normal göstəricilərə çatır (Хребтова О.М. 2004).<br>Lakin kiçik çanağın və orada yerləşən orqanların morfometrik topoqrafo-anatomik xüsusiyyətlərinin yaş dövrlərindən asılı olaraq kompleks şəklində öyrənilməsinə elmi ədədəbiyyatda rast gəlinməmişdir. |
| ***Məqsəd*** | Müxtəlif yaş dövrlərində qadın kiçik çanağının morfometrik ölçülərinin və çanaqda yerləşən bəzi orqanların topoqrafo-anatomik xüsusiyyətlərinin araşdırılması. |
| ***Vəzifələr*** | 1. Gənclik dövründə, bir və ikinci yetkin dövrdə kiçik çanağın morfometrik göstəricilərinin təyini.<br>2. Gənclik dövründə, bir və ikinci yetkin dövrdə kiçik çanaq orqanlarının topoqrafo-anatomik xüsusiyyətlərinin təyini.<br>3. Müxtəlif formalı çanaqlarda morfometrik göstəricilərin təyini.<br>4. Yaş dövrlərindən asılı olaraq kiçik çanağın morfometrik göstəricilərinin fərdi xüsusiyyətlərinin öyrənilməsi.<br>5. Müxtəlif yaş dövrlərindən asılı olaraq alınan nəticələrin müqayisəli təhlili. |
| ***Orjinallıq*** | Normada yaş dövrlərindən asılı olaraq qadın kiçik çanağının və |

| | | |
|---|---|---|
| ***(yeniliyi)*** | çanaq boşluğunda yerləşən bəzi orqanların morfometrik, topoqrafo-anatomik xüsusiyyətləri aydınlaşacaqdır. | |
| ***Elmi və praktik əhəmiyyəti*** | Yaş dövrlərindən asılı olaraq kiçik çanağın ölçülərinin və çanaq boşluğu orqanlarının (yumurtalıq, uşaqlıq) ölçü, forma və topoqrafik dəyişkənliyinin öyrənilməsinin nəticələri mama – ginekologiyada və məhkəmə tibi ekspertizada praktik əhəmiyyət kəsb edir. | |
| ***Material*** | Tədqiqat 75 insan çanağı və 50 canlı insan üzərində aparılaçaqdır. | |
| ***Daxil etmə kriteriyaları*** | Gənclik dövr –25<br>I yetgin dövr – 25<br>II yetgin dövr – 25 | 40 – USM<br>10 – MRT |
| ***Çıxarma kriteriyaları*** | Kiçik çanaq və orqanlarının potologiyaları istisna ediləcəkdir. | |
| ***Metodlar*** | 1. Maqnit-rezanans tomoqrafiya. morfometriya metodları ilə kiçik çanağın girəcəyinin və çıxacağının morfometrik göstəricilərinin təyini.<br>2. USM müayinə metodu ilə kiçik çanaq boşluğunda yerləşən bəzi orqanların morfometrik göstəricilərinin təyini.<br>3. Anatomik təşrih metodu.<br>4. Statistik təhlil metodu. | |
| ***Əsas və nəzarət qrupları*** | Normal insan çanağı və orqanları. | |
| ***Qiymətləndirmə və ya müqayisə kriteriyaları*** | Yaş dövrlərindən və müayinə metodların nəticələrindən asılı olaraq əldə olunan nəticələrin qarşılıqlı müqayisəsi. | |
| ***Maddi və texniki imkanlar*** | Tədqiqatın yerinə yetirilməsi üçün lazım olan maddi və texniki avadanlıqların təmini Azərbaycan Tibb Universiteti insan anatomiyası kafedrasının müdiri ə.e.x., REA-nın akademiki, | |

| | |
|---|---|
| | professor V.B.Şadlinski tərəfindən ediləcəkdir. |
| ***İşin müddəti*** | 2017-2020 |
| ***İşin mərhələləri*** | **I mərhələ. 2017-cı il**<br><br>Dissertasiya mövzusu üzrə müasir elmi ədəbiyyatla tanışlıq və mövcud elmi ədəbiyyat məlumatlarının toplanması. Tədqiqatın ilkin materiallarının toplanması. Tədqiqatın metodlarının və texnikasının mənimsənilməsi. 10 insan üzərində USM müayinə metodu ilə kiçik çanaq boşluğu orqanların topoqrafik xüsusiyyətlərinin və morfometrik göstəricilərinin öyrənilməsi. Eyni zamanda maqnit-rezanans tomoqrafiya müayinə üsulu ilə morfometrik və topoqrafik xüsusiyyətlərin müəyyənləşməsi. Tədqiqatın nəticəsində əldə olunmuş dəlillər əsasında məqalə və tezislərin dərc olunması. Dissertasiya mövzusunun təsdiqi. Mövzu üzrə elmi ədəbiyyatın toplanılması. Dissertasiyanın «Ədəbiyyat icmalı» və «Tədqiqatın material və metodlar» fəsillərinin ilkin variantının hazırlanması.<br><br>**II mərhələ. 2018- ci il**<br><br>Tədqiqatın ilkin materiallarının toplanması. Yaş dövrlərindən asılı olaraq kiçik çanağın və boşluqda yerləşən orqanların morfometrik və topoqrafik xüsusiyyətlərin tətqiqi. Əldə olunmuş məlumatlar əsasında cədvəl, qrafik və diaqramların hazırlanması. Dissertasiya mövzusu üzrə məqalə və tezislərin dərc olunması. Dissertasiyanın «Ədəbiyyat icmalı» və «Tədqiqatın material və metodlar» fəsillərinin son variantının hazırlanması. Alınmış dəlillərin analiz edilməsi və onların müasir elmi ədəbiyyatlardakı məlumatlarla müqayisə edilməsi. Dissertasiya işinin şəxsi tədqiqatların nəticələrinə həsr olunmuş fəsillərinin ilkin variantının hazırlanması.<br><br>**III mərhələ. 2019-ci il**<br><br>Dissertasiyanın «Alınmış nəticələrin müzakirəsi» fəslinin ilkin variantının hazırlanması. Yerli və xarici ölkələrdə keçirilən elmi konfranslarda tədqiqatın nəticələri barədə məruzələrin edilməsi. Dissertasiya mövzusu üzrə məqalə və tezislərin dərc olunmasının |

| | |
|---|---|
| | davam etdirilməsi. Əldə olunmuş nəticələrin tibbin müvafiq sahələrində tətbiq edilməsi üçün təkliflərin hazırlanması. Dissertasiyanın şəxsi tədqiqatların nəticələrinə həsr olunmuş fəsillərinin son variantının hazırlanması.<br><br>**IV mərhələ. 2020-cu il**<br><br>Dissertasiyanın «Alınmış nəticələrin müzakirəsi», və «Nəticələr» fəsilləri üzərində işlərin tamamlanması. Ədəbiyyat siyahısının son variantının hazırlanması. Həyata keçirilmiş statistik analizin dürüstlüyünün təyin edilməsi. İnsan anatomiyası kafedrasının iclasında və kafedralararası elmi konfranslarda dissertasiya işinin ilkin müzakirəsinin keçirilməsi. Dissertasiya barədə edilən irad və təklifləri nəzərə almaqla onun son variantının hazırlanması. Dissertasiyanın aprobasiya şurasında müzakirəsinin keçirilməsi. Dissertasiyanın son variantının açıq müdafiəyə təqdim olunması. |

| | |
|---|---|
| ***Ədəbiyyat*** | 1. Thomas S.M. Trends in the use of pelvimotri techniques. Clin Radid. 1998. Vol 53 № 4. P.233-235.<br>2. Barentsz L.O. MR imaging of the mole pelvisi. Eur. Radid 1999.Vol № 11. P. 1722-1736.<br>3. Озерская И.А., Агеева М.И., Возможности ультразвуковой пельвиометрии в определение размеров женского талого таза Ультразвуковая и функцианальная диагностика 2001. № 4. с. 53-55.<br>4. Цхой В.Б. Узкий таз в современном акушерства новые методы диагностике, лечение заболеваний в акушерекой гинекологической практике. Материалы оюл. Н.П.К. Новосибирск. 2002. с. 27-31.<br>5. Демарчук Л.М. Анатомо-антропологические особенности организма и размеры таза женшин на юнешоском этапе онтогенеза. Автореф. дисс. канд. мед. наук. 2004. с. 18.<br>6. Хребтова О.М. Индивидуально типологическая характеристика таза, ультразвуковая морфология молочной железы у молодых женщин. Дисс. канд. мед. наук. Новосибирск. 2004. с. 123.<br>7. Гайваронски И.В. нормальная анатомия человека. Учебник для мед. вузов. Спб. Спец. Лит. 2004. Т.1 с. 560.<br>8. Сырова О.В. Ультразвуковой анатомия внутренних половых органов девушек 17-19 лет с различными формами таза и типами телосложения. Дисс. канд. мед. наук. Саратов 2008. с. 116.<br>9. Виноградов С.В. Половые и индивидуальние морфо-метричиския характеристики таза взрослово человека. конд. дисс. мед. наук. Санкт Петервург 2006. с. 185. |

İnsan anatomiyası
kafedrasının assistenti: Ş.F. Qanbayeva